# "UNUDULMAZ ULULAR"DA KİMLƏR VAR?

## *yaxud, "Xəzanda yaz gülləri" poemasının bəzi hissələri haqqında*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

### *II hissə*

"Xəzanda yaz gülləri" poeması Əli Rza Xələflinin həm yaş, həm də mənəvi-psixoloji baxımdan çox kövrək dövrünün məhsuludur. Ona görə də bu poemanın ayrı-ayrı motivlərində xatirələrin yazıya gətirilməsi həzinliyi, ovqat kövrəkliyi, üstəlik lirik hisslərlə müşayiət olunması ilə fərqlənir.

Mən bu əsəri diqqətlə oxudum. Əlbəttə, müəllifin yaradıcılığına kifayət qədər bələdliyim var. Onun mənəvi-psixoloji düşüncələr üzərində yazılmış əsərləri zövqümü tam mənasında təmin edir desəm, heç bir mübaliğəyə yol verməmiş olmuram. Bir də ki, əsər o qədər ilhamlı duyğularla müşayiət olunur ki, oxucunun da hisslərini qanadlandırır. Oxucu özündən asılı olmayaraq müəllifin düşüncələr aləminə daxil olur. Sanki onunla birlikdə 70-ci illərin gəncləri ilə bir sırada dayanır.

Əlbəttə, həmin dövrdə müharibə təhlükəsi hiss olunmurdu. İnsanlarda xüsusi bir əmin-amanlıq duyğusu vardı. Ölkədə tikinti-quruculuq işləri geniş vüsət almışdı. Gənclər maraqlarına uyğun sahələrdə ixtisas qazanıb bu qaynar həyatda iştirak etməyə can atırdılar. Başqa sözlə, maddi ehtiyac və sıxıntı XXI əsrə ötən əsrin son onilliyindən sonra adladı. Deməli, Azərbaycan gəncləri əsl mənəvi təminat mühitində yaşayır, sevib-sevilmək istəyi ilə həyatlarının gələcəyinə doğru can atırdılar. Belə bir mühitdə ali məktəb həyatı yaşamış gənclərin həyat yolunu poetik ovqata gətirmək və bunu çox yüksək ilhamla yaza bilmək müəllifdən xüsusi istedad tələb edir.

"Xəzanda yaz gülləri" əsəri həm də ona görə cəlbedici və cazibəlidir ki, bir çox cəhətdən oxşar həyat yaşayan gənclərin fərdi hissləri, duyğuları da əsərdə yer alır. Mən bu barədə ola bilsin ki, başqa yazıda daha əhatəli danışardım. Amma indi mövzu "Unudulmaz ulular" motivində yazılmış hissədən ibarət olduğu üçün gənclərin mənəvi yüksəlişində xüsusi rolu olan dövrün ali məktəb müəllimləri, yəni böyük alimlər, onların dərs prosesindəki görünən təbiətləri bu qeydlərdə daha çox diqqətdə saxlamağa çalışıram.

Biz artıq bir çox müəllimlərdən söhbət açdıq. Onların kimliklərini, obrazlarını real cizgilərlə verən bədii parçaları sözümüzün güzgüsünə çevirdik. Onu da deyim ki, Azərbaycan Dövlət Pedaqoji Universiteti (o vaxt institutu) mənim üçün də çox doğmadır. Mən də bu ali məktəbin divarları arasında ali təhsil yolu keçmişəm. Demək, bu ali məktəbin keçmişi, tarixi ilə kifayət qədər bilgiliyəm. O vaxt belə bir fikir səslənirdi ki, Azərbaycan Dövlət Pedaqoji İnstitutu Nərimanovun xalqımız üçün ilk əmanətlərindən biridir, hətta onu Nərimanovun övladı da adlandıranlar vardı. Çünki bu institutun həyata vəsiqə alması ilə bağlı dekreti də o imzalamışdı. O vaxt Nərimanovun yüz illik yubileyinə hazırlıq işləri aparılırdı. Onu da deyim ki, Nərimanovun yüz illik yubileyinin keçirilməsi də Sovet dövründə asanlıqla mümkün olmamışdı. O vaxtkı Sovet rəhbərləri Nərimanovu yazıçı, ictimai xadim kimi tanıtmağı daha vacib hesab edirdilər. Burada mərkəzi komitədə yuva salmış daşnak varislərinin də kifayət qədər xidməti vardı. Amma ulu öndər o vaxt Sovet rəhbərləri ilə, xüsusilə Suslov və Brejnevlə çox ciddi polemikalar sayəsində sübut etdi ki, Nərimanov həm də böyük dövlət xadimidir. Beləliklə, onun Bakı şəhərində böyük abidəsinin ucaldılmasına da yol açıldı. Çox təəssüf ki, müstəqillik dövründə "fərasətli" tarixçilər Nərimanovun tarixi xidmətlərini kölgələməyə, bəlkə daha çox qaralamağa cəhd göstərdilər. Kimsə bir işbaz da asanlıqla onun heykəli qarşısında hündür mərtəbəli bir bina tikdirdi. Görkəmli ədəbiyyatşünas alim Pənah Xəlilov vaxtı ilə yazırdı ki, nə vaxtsa bir millətsevər iş adamının meydana çıxıb həmin binanın xərcini ödəməklə heykəlin önündə sökülməsini təmin edəcəyinə inanıram. Nə isə...

Pedaqoji İnstitutdan danışasan, xalqımızın maariflənməsi sahəsində əvəzsiz xidmətləri olan pedaqoq alimlərdən danışasan, amma bu institutun yaradıcısı haqqında düşüncələrini oxucularla bölüşməyəsən - bu mümkün olmazdı. İndi qayıdıram "Xəzanda yaz gülləri" poemasının səhifələrində görünən müəllimlərin (həm də böyük ədəbiyyat xadimlərinin) adları ilə bağlı məqamlara.

Müəllif özü doğru deyir ki, bu görkəmli alim-pedaqoqlar onun həyatında silinməz iz buraxdığı üçün zaman-zaman yaddaşına yoldaşlıq, sirdaşlıq edib. Həyatının əlli ilini onlarla birgə keçib gəlib.

Biz Əli Rza Xələflini hazırlıqlı bir ziyalı, çox fədakar qəzet redaktoru, məhsuldar publisist və əlbəttə, həm də ilhamlı bir şair kimi tanıyırıq. O, sənət yolunda tükənməz enerjisi ilə fərqlənir. "Xəzanda yaz gülləri" poemasında tam inamla qeyd edir ki, bu tükənməz enerji mənbəyi onun üçün müəllimləri olub. Bu müəllimlərin sırasında eləsləri var ki, Ə.R.Xələfli onların haqqında geniş və əhatəli söhbət açır. Bələlərindən biri də Zahid Xəlildir.

Azərbaycanın mənəvi mühitində Zahid Xəlil görkəmli pedaqoq və ustad şair kimi tanınır. O eyni zamanda həm də uşaq ədəbiyyatının tədqiqatçısıdır. Əli Rza Xələflinin təqdimində onun Zahid Xəlilə sonsuz sevgisini duymamaq mümkün deyil. Məmnunluqla onu bu gün də özünün ustadı kimi qavrayır, yaddaşında böyük sevgi ilə qoruyub saxlayır. Poemadakı gözəl bədii lövhələrdən bir parçasında o Zahid Xəlilin adını belə əbədiləşdirir:

Yaddaşımda mənimlə zaman-zaman yol gələn,
Sözümün ünvanıdır duyğu bilən, söz bilən.

Zahid Xəlil obrazı... bir bağın qızıl gülü,
Sevgisi solmaz bahar... könlümün özü gülü.

Ədasına, sözünə pərəstiş vardı məndə,
Heyran-heyran baxardım danışanda, güləndə.

Mən də belə müəllim olaydım onun kimi,
Zahid Xəlil qəlbimdə bir doğmalıq hakimi.

Hər bir tədqiqatçı özünün yaradıcılığına ustadının arzuladığı, amma demədiyi mətləblərdən başlayır. Sanki müəllif də bu gün də ustadı kimi xatırladığı Zahid Xəlil yolunun davamçısıdır. Hətta poetik mətnlərdə biz onun müəlliminə qibtə hissini də duyuruq. Nə qədər səmimiyyətlə ifadə edir və öz oxucusuna bildirir ki, kaş Zahid Xəlil kimi müəllim olaydı. Çünki onun doğmalığı, onun istiqanlılığı az qala yarım əsr vaxt keçməsinə baxmayaraq bu gün də düşüncəsində yaşamaqdadır. Zahid Xəlil haqqında danışanda müəllif qanadlı ifadələrdən səxavətlə istifadə edir. Çünki bu gün də Zahid Xəlili insanlıqda bir zirvə hesab edir. Zahid Xəlil uşaqlar və gənclər bədii yaradıcılığı



ilə nə qədər tanınırsa, müəllifin poetik vüsətlə onu insanlığın zirvəsi adlandırması da o qədər doğmalıqla səslənir.

Müəllif Zahid Xəlil haqqında yaddaşında qalanları sözünün sünbülü adlandırır. Hətta sözünün sünbülü adlandırdığı bu obraz onun üçün xatirə yaddaşının, xatirə bağının ən gözəl günü kimi sözlə bəzənir; o, Zahid Xəlili özünün mürşidi kimi, piri kimi anır. Dəfələrlə qeyd etdiyimiz kimi təmkində də, dəyanətdə də Zahid Xəlilə qibtə hissini səmimiyyətlə oxucularla bölüşür:

Mənim yazı yolumda ilk ustadım, pir yolum,
Təmkində, dəyanətdə Zahid Xəlil bir yolum.

İnsanlıqda bir zirvə, sənətində dağ olan,
Unudulmaz uludur könül yolu bağ olan.

Elmi rəhbərim idi, mövzum Aşıq Ələsgər,
Deyirdi çiçəklikdən işlək arı bal çəkər.

Yaddaşımda qalanlar sözümün sünbülüdür,
Tələbəlik dövründən bir xatirə gülüdür.

Bu dünyanın yükünü insan olan daşıyar,
Olsa Zahid Xəlillər, insanlıq da yaşayar.

Təqdim olunan bədii parçadan məlum olur ki, Zahid Xəlil bu gənc tələbənin yaradıcılıq istəyini, tədqiqatçılıq meylini, sözə-sənətə dəyər vermək gücünü vaxtında hiss edib. Müəllifin ayrı-ayrı vaxtlardakı xatirələrindən də oxumuşuq ki, Zahid Xəlil həmin dövrdə tələbələr üçün bədii yaradıcılıq dərnəyi təşkil edib. Yaradıcılıq potensialı olan istedadlı tələbələr onun dərnəyinə həvəslə yazılıblar. Belə gənclərdən biri də "Xəzanda yaz gülləri" poemasının müəllifidir. Maraqlıdır ki, Zahid Xəlil Əli Rza Xələflinin xalq yaradıcılığına, xüsusilə Aşıq Ələsgərə olan sevgisini onun ilk çıxışlarından duyub və ilk tədqiqat əsəri kimi ona "Aşıq Ələsgərin yaradıcılığında təbiət təsvirləri" mövzusunu həvalə edib.

*(Davamı 11-ci səhifədə)*

# "UNUDULMAZ ULULAR"DA KİMLƏR VAR?

## *yaxud, "Xəzanda yaz gülləri" poemasının bəzi hissələri haqqında*

*(Əvvəli 10-cu səhifədə)*

Yenə də müəllifin Zahid Xəlil haqqında xatirələrindən öyrənirik ki, Zahid Xəlil tədqiqat üçün ona dəyərli məsləhətlər verib, hətta həmin dövrə qədər Aşıq Ələsgəri tədqiq edən, onun yaradıcılığında təbiət təsvirlərini öyrənən alimlərdən fərqli olaraq nələrə diqqət yetirməsini də tapşırıb. Tam məntiqlə inanmaq olar ki, Əli Rza Xələflinin bugünkü tədqiqatçılıq yönümündə yaradıcılığının əsasında Zahid Xəlilin ilk məsləhətləri və tapşırıqlarının qaynar olduğu dəqiqdir.

Bundan başqa o Zahid Xəlilin təmkinli, zəngin bir alim olduğunu hissiyyatlı bir şair kimi daim yaradıcılıq yolunda xidmətlərini də təqdim olunan bədii parçada əks etdirə bilib. Maraqlıdır ki, hər bir şagird, yaxud tələbə öz müəlliminin ən üstün keyfiyyətlərini məmnunluqla, bəlkə də qibtə hissi ilə qəbul edir və yaddaşında qoruyub saxlayır. Tələbənin öz müəllimınə oxşamaq istəyi zənnimcə, onun daha mənəvi yüksəlişə can atması deməkdir. O, Zahid Xəlili həm də humanist, insanlığa doğma olan şəxsiyyət kimi xarakterizə edir və maraqlı nəticəyə gəlir; nə qədər ki, Zahid Xəlillər yaşayır, deməli, insanlıq da yaşayacaq.

"Xəzanda yaz gülləri" görkəmli alim müəllimləri xatırlatdıqca gözlərimizin önündən parlaq obrazlar keçir. Əlbəttə, bu yerdə Həsən Mirzəyevin həm alim, həm ictimai xadim, həm də ulu öndərin müstəqillik uğrunda mübarizəsinə xüsusi dayaq olan əqidəli bir insan obrazını bütün aydınlığı ilə təsəvvür edə bilirik.

Həsən Mirzəyev uzun illər ali məktəbin ən mühüm kafedralarından birinə rəhbərlik edib. Onun dilçilik sahəsindəki xidmətləri Bəkir Çobanzadənin, Əbdüləzəl Dəmirçizadənin əvəzsiz işlərinin davamı kimi diqqəti cəlb edir. Onun elmi tədqiqatları 12 cilddən ibarət nəşr olunub və elm xəzinəmizin ən dəyərli abidələrindən biri kimi gələcək nəsillərin ixtiyarına verilib. Həsən Mirzəyev əqidəli, prinsipial alim və müəllim olmaqdan başqa azərbaycançılıq idealına axıracan sadiq olan siyasi mübarizlərdən biri kimi yaddaşlarda bu gün də parlaqlığı ilə özünü təsdiq edir.

"Xəzanda yaz gülləri" poemasında Həsən Mirzəyev kimi alimlərin ədəbi-mənəvi mühitimizdəki yeri hər vaxt görünəcək.

Həyatının son illərində onu ən çox Qərbi Azərbaycanda - Dərələyəz mahalında baş verən hadisələrin tarixi o yerlərin toponimikası daha çox maraqlandırırdı, bu da təbiidir.

Həsən Mirzənin xatirəsinə həsr olunmuş bədii hissə çox ilhamla yazılıb:

Vətənə sədaqəti andında, bəyanında,
Həsən Mirzə dayanıb Ulu Öndər yanında.

Yolunda, amalında vətən dili andırır,
Yarası göz-göz olan yurdu, eli andırır.

Həsən Mirzə dilinin axır-əzəl sözüdür,
"Hara dönsək, qibləmiz Ulu Öndər özüdür.

Qoy hər kəs yaxşı bilsin doğmamız, yadımız da,
Onunla yaşayacaq bu vətən adımızda".

Millətə vəkilliyi onun haqqı, sayıdır,
Qazandığı şöhrəti halal tale payıdır.

Adı başda çəkilər, yeri öndə olardı,
Qətiyyəti, hikməti doğru yöndə olardı.

Dilimizin tədqiqi onun əsas işiydi,
Böyük alim, şəxsiyyət, sözü bütöv kişiydi.

Sazın, sözün aşiqi, ilhamlı təbi vardı,
Çətini asan edən təmkin məktəbi vardı.

El yığnağı, məclislər - biri onsuz keçməzdi,
Bu doğmadır, o yaddır - bir kimsəni seçməzdi.

Doğru-düzü danışan hər kəs ona əzizdi,
Qəlbinin genişliyi bir ümmandı, dənizdi.

Dərələyəz mahalı, Aşıq Mehdi gələrdi,
Saz cövlana qalxanda söz gözündə gülərdi.

Yerin-yurdun ünvanı sözdə muncuq düzümü,
Yaddaşımda yandırır ocağımı, közümü.

Şair, aşıq deyişir... əsir yurdlar can deyir,
Milyon-milyon ürəklər bir Azərbaycan deyir.

Xəyalımla uçuram öz uşaqlıq çağıma,
Qalxıram sinəm üstə bitən həsrət dağıma.

Həsən Mirzə soruşur, yollar tanış gəlməzmi?
Yaddaş üzə güldüsə, ilham sözə gülməzmi?



Əli Rza, yadındamı bizim Murad təpəsi,
Söz-söz narın yağışı yaddaşına səpəsi.

Bu da Təkədonduran... Buz Kahası deyir gəl,
Ruhundan qanadlanan sözün səni öyür, gəl.

Qırxlar, Murxuz, Sandıqlı, Sümüklü Pir göz çəkir,
Haylar Eşşək Meydanı, qəm şumlayır, dərd əkir.

Qısırın zirvəsindən baxıram ağ dənizə,
Mələk misal uyuyan nurunda ay bənizə.

Dalğalı duyğulara güzgü Pəri çınqılı,
Hünərin var yolu tap, özün yeri çınqılı.

Qanadları açılmış Dərələyəz mələyi,
Gözəlliyi qərq edər heyrətində fələyi.

Çağlayan Bazarçayın gümüşü kəmərinə,
Baxıram göz dolusu taleyin nəmərinə.

Baxıram Qotursuya, keçirəm Arxaşandan,
Bilmək olmaz nə qalar, hər qaynayıb daşandan.

Xəyalım qanadında dönürəm günümə mən,
Açıb könül qapısı, gəl deyən ünümə mən.

Doğma ali məktəbin gülərüz divarları,
Ruhumu salamlayır, tarixinin baharı.

Həsən Mirzə irsinin yaşarı bir yolu var,
Müdriklərin ölməyən, əbədi pir yolu var.

Mahirə Nağıqızı şərəfli zəhmət çəkir,
Həsən Mirzə yoluna solmayan güllər əkir.

Vətənə sədaqətin özü olsa təməldə,
Ruhların yaşamağı xatirədir əməldə.

Əli Rza Xələfli Həsən Mirzəyevin çoxcildlik elmi tədqiqatlarını araşdırmış, həmin çoxcildliyin bir neçə cildi haqqında silsilə məqalələr yazmışdı. Bu da onun ali məktəbdə ustadlıq nəfəsini duyduğu müəllimınə ehtiramının ifadəsidir. Mən çox istədim ki, Ə.R.Xələfli H.Mirzəyev yaradıcılığını onun çoxcildlikləri əsasında tədqiqatında davam etdirsin. Onsuz da elə onun yazdıqları bir kitablıq işdir.

Bundan sonra o, yaddaşından gələn diktəni davam etdirir. Nizaminin, Tərlanın adını çəkir. Onlar da Azərbaycanın görkəmli alimləridir. Nizami Xuduyev əməkdar elm xadimi kimi tanınırdı. Eyni zamanda həmin ali məktəbin sonralar rektoru da olmuş, Milli Məclisin üzvü kimi çox geniş siyasi iş aparmış, dövlətçilik yolunda mübarizədə ulu öndəri yaxından dəstəkləmiş və ona yardımçı olmuşdu. Bütün bunların hamısını müəllif böyük zəhmətin və istedadın bəhrəsi hesab edir. Mövcud bədii təsvirlərdə biz Nizaminin kifayət qədər yaddaşlarda qalacaq obrazı ilə qarşılaşırıq:

Nizamini, Tərlanı unutmadım yenə mən,
İnsana sədaqəti əvəz bildim dinə mən.

Burada o, iki müəlliminin adını çəkir. Zənnimcə, bu da təsadüfi deyil. O dövrün tələbələrinin yaddaşına eyni vaxtda pedaqoji aləmə və tədqiqata gəlmiş gənc müəllimləri müqayisəyə imkan yaradır. Əlbəttə, Tərlan Novruzov da Sabirşünaslıqda müəyyən xidmətləri olan alimdir. Hər halda o dövrün gəncləri olan bu alimlərin formalaşması üçün kifayət qədər münbit şərait olub. Amma, əlbəttə, Nizami Xudiyevin ictimai-siyasi fəaliyyəti, siyasi proseslərdə fəal iştirakı onun cəmiyyətdə daha çox tanınmasına şərait yaradır.

Nizamiyə zəhməti, istedadı yol açdı,
Yüksək kürsülər ona qucaq açdı, qol açdı.

Arada hörmət-izzət, sözə sevgidən gəldi,
Sayğılar, yanaşmalar düzə sevgidən gəldi.

Həyatın axarında yaxşı-yaman bəlləndi,
Nizamidən gələn yol varlığında güllləndi.

İnsanlığı ucaldan ağıldır, istedaddır,
Zəhmətlə cilalanan sevgi dolu həyatdır.

Necə də doğru qənaətdir? Tam mənası ilə mən də şərikəm ki, insanlığı ucaldan ağıldır, istedaddır. Yaxşı həyat təcrübəsini bir dərslik kimi yaddaşında qoruyub saxlayan hər kəs zəhmətə güvənərək mənəvi ucalıq mərtəbəsinə qalxa bilər. Biz sonralar Nizami Xuduyevin həyat yolunu izləmişik, onun televiziya çıxışlarında, ümumiyyətlə, Azərbaycan televiziyasına və radiosuna rəhbərlik etdiyi dövrdə xalqımızın haqq səsi dünya arenasına bütün gücü ilə çıxa bilirdi. Bu gün Azərbaycan televiziya və radiosunda onun yaratdığı ən yaxşı ənənələr davam etdirilir.

Azərbaycan televiziyasının rəhbəri gənc Rövşən Məmmədovun həftənin siyasi xronikasını ümumiləşdirən çıxışları göstərir ki, televiziyamızın tribunasında necə istedadlı gənclər var. Mən hər dəfə də onun çıxışlarını dinlədikcə xüsusi qürur hissi keçirirəm. Bütün bunlar zamanın əvəzsiz örnəkləri kimi gələcək nəsillərə nümunə olacaq.

Bundan sonra "Xəzanda yaz gülləri" poemasının yeni obrazları ilə qarşılaşırıq. Paşa Əfəndiyevi yaxşı tanıyırdıq. O, Azərbaycan folklorşünaslığının son patriarxlarından biri kimi yaddaşımızda əbədiləşib. Koroğlu, Əsli və Kərəm, ümumiyyətlə, folklorun ən müxtəlif janrları ilə bağlı tədqiqatları heç vaxt dəyərini itirməyəcək.

*(Davamı 12-ci səhifədə)*

# "UNUDULMAZ ULULAR"DA KİMLƏR VAR?

## *yaxud, "Xəzanda yaz gülləri" poemasının bəzi hissələri haqqında*

*(Əvvəli 11-ci səhifədə)*

"Xəzanda yaz gülləri" poemasında sevgi ilə tərənnüm olunan Paşa müəllimin təbiəti ən həssas misralarla öz əksini tapır. Müəllif onu yaxşı xatırlayır. Aspiranturaya təqdim etdiyi referatına Paşa müəllimin müsbət rəyi bu gün də onun yaddaşında rəğbət duyğularını təlqin edir. Onu da deyim ki, Paşa müəllim uzun ömür yaşadı və bu zamanlarda o, bir an da olsun yaradıcılıqdan kənarda qalmadı. "Kredo" qəzetinin nəşrə başlamasından sonra biz onun xalq yaradıcılığının müxtəlif janrlarına dair yeni tədqiqatlarının bu qəzetdə ardıcıl dərc olunmasını müşahidə edirik. Qəzetdə Paşa müəllimin Ə.R.Xələfliyə ünvanlanmış çoxlu məktubları var. Hətta müəllifin vaxtı ilə referat kimi təqdim etdiyi mövzuya yazdığı rəyi də xatırladır.

Yaradıcı insana stimul verəndə onun yazıb-yaratmaq eşqi də alovlanır, həyatı yaşamq istəyi də tükənmir.

Paşa müəllim təbiət etibarı ilə sakit insan idi. Müəllif onun mənəvi mühitini ağ rəngin fonuna bənzədir. Müəllifin ruhunu qanadlandıran, ona ilham verən məqamlardan biri də onu unutmayan, yaddaşlarda saxlayan müəllimlərinin ayrı-ayrı vaxtlarda görüşlərdə, tədbirlərdə haqqında yüksək rəğbətlə danışmalarıdır. O, müəllimləri ilə fəxr etdiyi kimi müəllimləri də onunla qürur duyduqlarını, fəxr etdiklərini etiraf etməkdən çəkinmirlər.

Buradaca bir məqamı da qeyd edək; müəllif yeri gəldikcə görkəmli alim-pedaqoqların mənəvi varislərini, onların elmi fəaliyyətlərini davam etdirən yeni nəsil tədqiqatçı pedaqoqların da adlarını unutmur. Bu sırada bir görkəmli folklorşünas alim Paşa Əfəndiyevin yetirməsi professor Mahmud Allahmanlının da adını çəkməyi unutmamalıyıq:

Yol çəkən gözlərimin önündən kimlər keçir,  
Xatirə bulağından könlüm duru su içir.

Paşa müəllim gəlir, dünyası ağ kişiydi,  
Xeyirxahlıq, yaxşılıq onun amal işiydi.

Mənə rəy vermişdi bir vaxt, açıq-aydın yazıyla,  
Yaddaşımda hələ də yaşayır avazıyla.

Paşa Əfəndiyev gənclərin elmi tədqiqata cəlb olunmasında, folklorşünaslıq elminin inkişafında mübahisəsiz etiraf olunan alimlərimizdəndir. Onun dövrün tələbələrinə münasibəti də bu gün xüsusi diqqət payı alır.

Müəllifin xatirə yaddaşından gələn bənzətmələrdə onun duruluğu haqqında kifayət qədər informasiya alırıq. İnsan nə qədər duru olarsa, bir o qədər də dövrünün, müasirlərinin yaddaşına hopmuş olar. Elə indinin özündə də Paşa Əfəndiyev ənənələri yaşamağa layiqdir.

İnsan nə qədər aydın, duru olarmış belə,  
İnsanlıqda duruluq yadda qalarmış belə.

Deyirdi fəxr edirəm, səninlə, ay Əlirza,  
Tanrı səni göndərib bizlərə pay, Əlirza.

Mahmud Allahmanlını onun oğlu bilirəm,  
Mənəvi varis kimi düzgün, doğru bilirəm.

Həqiqətlər beləcə yaşayır nəsil-nəsil,  
Söz gülləri təzədən qayıdır fəsil-fəsil.

Bildirirəm ki, Mahmud Allahmanlı Paşa Əfəndiyevin son dövr yaradıcılığının mətbuata çıxarılmasında, tədqiqata cəlb edilməsində xüsusilə fərqlənib. O, Paşa Əfəndiyev haqqında maraqlı yazılar yazıb. Tədqiq etdiyi sahələri, nəşr olunmuş kitabları məhz Mahmud Allahmanlının sayəsində ümumi oxucu arenasına çıxarıb. Tədbirlərdə, yığıncaqlarda professor Mahmud Allahmanlını da müşahidə etmişəm. Onun yumşaq, həlim təbiəti sanki Paşa Əfəndiyevdən əxz olunan xarakterik cizgilərdir.



Onu da deyim ki, professor Mahmud Allahmanlı Bəkir Çobanzadə irsinin tədqiqatçısıdır. Eyni zamanda Paşa Əfəndiyevin irsinin də qaydaya salınmasında, arxivinin öyrənilməsində cəfakeşliklə əmək sərf edir. Bu da onu göstərir ki, müdrik insanların, böyük alimlərin irsinin yaşadılmasında mənəvi varislərin xidməti əvəzsizdir. Nəsillər dəyişir, yeni nəsillər daha əvvəlki nəsillər haqqında az məlumata malik olurlar. Məhz körpü adamların sayəsində mənəvi tariximizin parlaq portretləri unudulmur, yaddaşlarda yaşadılır.

"Kredo" qəzetində ayrı-ayrı vaxtlarda iki maraqlı alim haqqında çox dəyərli yazılar çap olunub. Bunlardan biri Qiyasəddin Qeybullayevdir. Digəri isə Varaşil Qukasidir. Onların hər ikisi türk dilinin qədim dövrləri ilə bağlı izlərin axtarışında əvəzsiz xidmətlər göstəriblər. Onu da deyim ki, türk dilinin arxailəşmiş, tarixləşmiş ifadələrinin şərhi ona görə bizim üçün böyük əhəmiyyət kəsb edir ki, dilimizin bu yerlərdə yaşayan aborigen türklərin mənəvi sərvəti olduğunu təsdiq edir.

Elə insanlar olub ki, onlar həm Qiyasəddin, həm də Varaşil müəllimin xidmətlərini danmağa çalışıblar. Hətta bəzən vicdansızcasına kinayələr də ediblər. Qiyasəddin tatdır, Varaşil udindir - deyə. Ancaq mənə elə gəlir ki, bu iki alim türk dilinin qədim dövrlərinin öyrənilməsində nadir ziyalılıq nümunəsidir:

Ulu tanrı vergisi Qeybulla Qiyasəddin,  
Azərbaycan sevgisi uca məslək, uca din.

Varaşil Qukasini heç unutmaq olarmı,  
Qoca Türkə sevgili xatirəsi solarmı?

Qədim Alban tarixi sözündə çözülürdü,  
Qarabağın sirləri dilindən süzülürdü.

Hayılar onun başına pul qoyub hədələyir,  
Ancaq o da çəkinmir, doğrunu, düzü deyir.

Məlumdur ki, Qarabağda ermənilərin düşüncəsi seperatçılar, neofaşistlər tərəfindən zəhərləndi. Tarixdən məlumdur ki, bu ərazidəki alban tayfalarının bir qismi sonralar kilsənin təsiri ilə Qriqoryanlığı qəbul etdilər və erməniləşdilər. Onların bir çoxu son vaxtlara qədər əslən alban olduqlarını təsdiq edirdilər. Amma hay psixologiyası onların varlığını, demək olar ki, mənəvi baxımdan tamam dəyişdi. Elə buradaca qeyd etmək lazımdır ki, Qiyasəddin Qeybullayev və Varaşil Qukasi kimi alimlər alban əsllərinə xəyanət etmiş olan və hayların təsirinə uymuş erməniləri dəqiq faktlarla ifşa edirdilər. Müəllif doğru olaraq qeyd edir ki, bu yolda Azərbaycanın bu iki görkəmli alimi sözün həqiqi mənasında can qoyub. Düşünürəm ki, Varaşil Qukasinin də, Qiyasəddin Qeybullayevin də əsərləri toplanıb yenidən nəşr olunmalı, mənəviyyat xəzinəmizə daxil edilməlidir. Bundan sonra müəllif maraqlı məqamlara işarə edir.

Qiyasəddin Qeybulla, Varaşil Qukasi də,  
Qarabağın yolunda can qoyub ikisi də.

Adlarına küçələr... deməyin ki, xəyaldır,  
Qarabağın özündə... bu adlara halaldır.

Az deyildi daş atan, necə tənələr vuran,  
Sən udinsən, sən də tat... nə çoxdur aravuran.

Bilirəm ki, onlarsız çox sirlər açılmazdı,  
Gec olsa da, etiraf vicdandı, qaçılmazdı.

Müəllif çox dəyərli qənaətə gəlir. Göstərir ki, əgər onların tarixi baxımdan əvəzsiz tədqiqatları olmasaydı, çox sirlərin üstü açılmazdı. Bu yerdə biz daha bir dövrün sağlam əqidəli, vicdanlı alimlərindən biri kimi Cavanşir Hüseynovun da adının xatırlanmasına rast gəlirik. Cavanşir müəllim tarixçi idi. XIX əsr Azərbaycan tarixi üzrə mütəxəssis idi.

Məlumdur ki, XIX əsr tariximizin ən ziddiyyətli, ən faciənə dövrlərinin şahididir. Müəllif xatırlayır ki, Cavanşir müəllim danışanda Azərbaycanın ikiyə parçalanması məsələsinin səbəblərini izah edərkən sözün həqiqi mənasında kövrəlirdi. Tarixin ən ədalətsiz hökmü kimi "Gülüstan"ı, "Türkmənçay"ı xatırlayır, bütöv bir vətənin parçalanmasına ürək ağrısı ilə təəssüf edirdi. Əslən Lerikdən olan Cavanşir Hüseynov Azərbaycan tarixinə vicdani münasibəti ilə müəllifin yaddaşında parlaq iz buraxıb. Və müəllif onu lirik ovqatlı duyğularla xatırlayır:

Lerikli Cavanşirin dünyası çox duruydu,  
Azərbaycan tarixi qəlbinin qüruruydu.

Qəlbinin sevgisiylə mühazirə oxuyur,  
Vətənə məhəbbəti bizə yaddaş toxuyur.

"Gülüstan"da kövrəlir, "Türkmənçay"da bulanır,  
Araz olub qıvrılır, fikir-fikir dolanır.

Babəkdən danışanda dönüb Babək olurdu,  
"Çaldıran"da odlanır, yarpaq-yarpaq solurdu.

Göründüyü kimi, tarixi şəxsiyyətlərlə birgə tarixi hadisələr də xatırlanır. Cavanşir Hüseynov Azərbaycan tarixinin ən qanlı səhifələrindən olan "Çaldıran" haqqında danışarkən hansı hissləri keçirdiyini təkcə mühazirəsi ilə deyil, həm də duyğuları ilə, sarsıntıları ilə tələbələrinə çatdırırmış. Müəllif doğru olaraq qeyd edir ki, Cavanşir Hüseynov kimi müəllim əslində tarixi özündə yaşadan tarixdir. Necə obrazlı şəkildə qeyd olunur; o, Babəkdən danışanda sanki Babək olurmuş. Bu da xalqın tarixinə sevginin çox qabarıq, bariz nümunəsidir.

Söz yox ki, Nərimanov zaman-zaman mübahisə obyekti olub. Onun qlobal düşüncəsi çox uzaq gələcəyə qədər proseslərin sonluğunu görməsi dövrünün məhdud adamları tərəfindən düzgün qavranılmayıb. Beləliklə, Nəriman Nərimanovun dövrünün siyasət masası gözlərimiz önündə canlanır. Biz Nəriman Nərimanova qarşı savaş meydanı açan daşnakları və milli xəyanətkarları gözlərimizin önünə gətiririk.

*(Davamı 13-cü səhifədə)*

# "UNUDULMAZ ULULAR"DA KİMLƏR VAR?

## yaxud, "Xəzanda yaz gülləri" poemasının bəzi hissələri haqqında

*(Əvvəli 12-ci səhifədə)*

Onlar bütün gücləri ilə çalışırdılar ki, siyasət masasında hər dəfə qalib olan Nərimanovu aradan götürsünlər. Amma bu mümkün olmadı. Nərimanov dövrümüzə qalib kimi gəlib çatdı.

İnsan necə tarixdir? - gözlərindən duyurduq,
Tarixin rənglərini sözlərindən duyurduq.

Nərimanov döyüşür siyasət masasında,
Bolşevizmin zəhəri ideya kasasında.

Məntiqində, hökmündə sözü birdir, özü bir,
Cavanşir müəllimlə odu birdir, közü bir.

Müstəqillik haqqında yana-yana danışır,
Onu nələr gözləyir... qana-qana danışır.

Cavanşir müəllimi vətənsevər görürdük,
Adından ilham alan bir cəngavər görürdük.

Təqdim olunan parçada Cavanşir müəllimin ziyalı obrazı, vətən sevgisi, Azərbaycan tarixinə obyektiv münasibəti çox dəqiq, real cizgilərlə verilib. Babəkin yetmişinci illərdə tələbə olan gənclərə sevdirilməsində məhz Cavanşir Hüseynov kimi tarixçilərin can yanğısı ilə oxuduğu mühazirələrin əvəzsiz əhəmiyyəti olub. Bakı şəhərində Babəkə heykəl qoyulması haqqında prezidentin sərəncamı var. Əlbəttə, biz bilirik ki, tez-gec Babək əzəmətli heykəli ilə təzədən Azərbaycan xalqına qayıdacaq. Yəqin ki, o zaman onu yeni nəslə sevgi ilə öyrədən Cavanşir Hüseynov kimi alimlərin də ruhu şad olacaq.

Cavanşir Hüseynov təbiət etibarı ilə qorxmaz, tarixə vətəndaş və əsgər şücaəti ilə bağlı ziyalı idi. Bu baxımdan onun Nəriman Nərimanova münasibətini də diqqətə çəkmək yerinə düşər. Həmin dövrdə onun Nərimanov bədxahlarına qarşı münasibəti də "Xəzanda yaz gülləri" poemasında kifayət qədər aydınlığı ilə duyulur.

Düşünürəm ki, məhz Cavanşir müəllim kimi alimlərin sayəsində Azərbaycan tarixinin Sovet ideologiyası ilə pərdələnən səhifələri örtülməyib. Yaddaşlara hopub və günümüzə qədər gəlib çatıb. İndi Cavanşir müəllimin adının xatırlanması ilə düşüncəmizdə Nəriman Nərimanovun da obrazı bütün aydınlığı ilə gözlərimiz önündən keçir.

Bu günlərdə sosial şəbəkədə Anarın Nəriman Nərimanov haqqında çox mükəmməl və geniş əhatəli tarixi essesini oxuduq. Həmin qeydlərdən də bilavasitə Nərimanovun ayağına yazılan səhvlərin obyektiv səbəbləri dəqiq və aydınlığı ilə görünür. Biz artıq yuxarıda Nəriman Nərimanov haqqında kifayət qədər danışmış və məsələyə münasibət bildirmişik.

İndi bir məqama diqqəti yönəltmək istəyirəm: Azərbaycanın tarixi keçmişi ilə bağlı obyektiv münasibətlərində fədakarlıq göstərmiş alimlərin adları Xankəndidə əbədiləşməlidir. Yusif Yusifovun, Qiyasəddin Qeybullayevin, Varaşil Qukasinin, Cavanşir Hüseynovun və başqalarının, yəni milli keçmişimizlə bağlı fədakarlıq göstərmiş alimlərin adları tam mənəvi haqq olaraq Xankəndi küçələrində yeni nəsillərin qürur qaynağı kimi öz haqqını almalıdır.

Bundan sonra müəllifin müəllimlərinə müraciətlə duyğu və düşüncələri gəlir. Bu lirik ovqatlı düşüncələrdə onun müəllimlərinə sevgisi də duyulur. Hətta hiss edirik ki, o fədakar müəllimlərinin yolunu davam etdirməkdə nə qədər qərarlıdır və qürurludur:

Mən sizi doğma gördüm, əziz müəllimlərim,
Yolumdur sizdən qalan hər iz, müəllimlərim.

Savaşımda adınız od saçıb, alov saçıb,
Varlığımda gücünüz cəng açıb, meydan açıb.

Məhəbbətin xəzanı, sevginin də sonu yox,
İlahi bir duyğudur, sevgilərin donu yox.

Qorunuzdan aldığım od hələ də sönməyib,
Sözünüzdən gördüyüm savaş yönüm dönməyib.

Mən bu fikirlə tam razıyam ki, müəllimlərinin ruhuna müraciətlə bildirir ki, onlardan aldığı od onun varlığında hələ də sönməyib. Bu gün də öz mübarizəsinin əsas yönümünü məhz müəllimlərindən aldığı duyğu və düşüncələrin təsir gücü ilə istiqamətlənir.

"Xəzanda yaz gülləri" poemasının "Unudulmaz ulular" adlandırdığı poema-etüdün son misralarında yenə Qarabağ xatırlanır. Birmənalı şəkildə müəllif qeyd edir ki, öz doğma müəllimləri ilə birgə yeni həyata doğru inamla hərəkətdədir:

Ruhunuzla qalxmışam dağlarına vətənin,
Gözlərindən öpmüşəm şəhid-şəhid bitənin.

Şad xəbəri sizinlə bölüşürəm indi mən,
Gözlərimdə güllənir Qarabağda çöl-çəmən.

Unudulmaz ulular, yenə həmin qandayam,
Mən yenə də sizinlə bir ürəkdə, candayam.

Hər bir misrada lirik qəhrəmanın ulular adı ilə xatırlatdığı müəllimlərinə odlu-alovlu sevginin təəssüratları duyulur. Bu təəssüratların ən qaynar məqamları, əlbəttə, onun ayrı-ayrı obrazları xarakterizə edərkən ilhamlı təsvirlərində üzə çıxır. Müəllif öz üslubuna uyğun olaraq artıq həyatda olmayan müəllimlərinin ruhlarını Qarabağın qaytarılması ilə bağlı şad xəbərlə sevindirir.

Bu, əlbəttə, müəllifin təkcə öz taleyi ilə bağlı məsələ deyil. Həm də bütövlükdə xalqın tarixi ilə, taleyi ilə bağlı məsələdir. Azərbaycanın müstəqilliyinin nə demək olduğunu müəllimlərindən əxz etmiş gənclərin sonrakı həyatlarının bir qərinəsi Qarabağ həsrəti ilə keçdi. Amma nəhayət, müəllif fəxrlə, qürurla gələcək nəsillərə çatdırır ki, müzəffər Ali Baş Komandan və Dəmir yumruq - Azərbaycan ordusunun qüdrəti sayəsində yağılar torpaqlarımızdan qovuldu. Müəllifin bu duyğulanmalarını poema-etüdün sonunda verilmiş divani ruhlu bir şeirdə çox qürurlu duyğularla oxuyuruq:

Qoy sevinsin ruhunuz, unudulmaz ulular,
Qarabağın adına qaramızı qaytardıq.
Bayrağımız ucaldı Xankəndi meydanında,
Xainlərin əlindən paramızı qaytardıq.

Poema-etüdün sonunda verilmiş bu şeirdə sanki Qarabağla bağlı hadisələrin xronikasını görürük. Doğru olaraq qeyd edir ki, Qarabağın işğalı tariximizin və xəritəmizin qara ləkəsinə çevrilmişdi. Həmin qaralığa bürünmüş işğal zonasını qaytarmaq bir çox qaranlıqlara işıq bəxş etmək deməkdir. Müəllif sevinclə bildirir ki, Xankəndi meydanında Azərbaycan bayrağı ucalır. Torpağımızın parasını qoparıb əlində saxlamış canilərin nəinki əlləri, qolları kəsildi. Onlar bütün yalançı, saxta rəmzlərin ataraq baş götürüb getdilər. Bu nəyin sayəsində mümkün oldu. Bunu müəllif belə ifadə edir:

Vətən dedi damarı sevdalı coşqunun da,
Ümidləri oyandı dəlisov çaşqının da;
Xocalı uçqununda, Qarabağ daşqınında,
Sellərə qərq olan Saramızı qaytardıq.

Beləliklə, Azərbaycan xalqı vahid orqanizm kimi birləşdi və onun damarlarından axan qan bütün coşqunluğu ilə vətən dedi. Ən başlıcası, Azərbaycan xalqının mənəvi faciələrinin əks-sədası kimi yadda qalan məşhur mahnı burada yada düşür; "Apardı sellər Saranı". Amma indi Xocalı faciəsinin də qisası alındı. Qarabağın qan daşqınında qərq olan mənəvi idealımız vətən ülviyyəti, Saranın taleyi də nikbinliklə xalqın taleyinə qovuşdu.

Məlumdur ki, Qarabağ ağrısı ürəklərin göynək yeri idi. Hətta diplomatlarımız da düşmənlə üzüzə gələndə vətən ağrısını varlıqlarından kənara çıxara bilmirdilər. Bunun üçün düşmən üzərində qələbə lazım idi. Xalqın mənəvi kimliyi yalnız qələbə ilə təsdiqlənə bilərdi.

Ürəklərdən ayrılan dərdlərin göynək yeri,
Abır-ismət paltarı, qeyrətin köynək yeri;
Adlını addan salan tarixin öynək yeri,
Göynəyən dərdimizi, yaramızı qaytardıq.

Bütöv bir qərinə ərzində uşaqdan-böyüyə Azərbaycan xalqının hər bir nəfərində yurda qayıdış inamı vardı. Amma vaxt uzanırdı. Yeni nəsillər doğulur, övladlar böyüyür, qocalanlar həyatdan nisgillə köçürdülər. Arzular, istəklər dillərdə söz şəklində qalırdı. Amma yurdumuz, torpağımız yad əllərdə didilirdisə, bu o demək deyildi ki, biz haqqımıza çata bilmərik. Müəllif burada maraqlı bənzətmə işlədir. Yetişməmiş salxımı qoralamaq bir acılıq hissi yaradır. Qarabağı üzüm qorasına bənzədir. Xalqımızın gücü sayəsində həmin didilən salxımlar qoralanan Qarabağ barı, bəhəri qaytarılmalı idi və qaytarıldı:

Arzumuz, istəyimiz dolansa da dillərdə,
Ömrümüz çürüyürdü ötüb-keçən illərdə;
Yurdumuz, torpağımız didilirdi əllərdə,
Didilən salxımları, qoramızı qaytardıq.

Şeirin sonluğu maraqlı bir mətnlə bitir. Müəllif Xələflinin ruhunu tarixə körpü bilir. Və burada əlbəttə, Xudafərini yada salır. Sanki bununla Azərbaycanı ikiyə bölənlərə də xatırladır ki, vaxt gələcək o taylı, bu taylı Azərbaycan xalqı birləşəcək. Bununla da düşmən əliylə kəsilən, doğranan parçalar yağılara rişxəndlə, kinayə ilə güləcək.

Xələfli də ruhunu körpü bildi tarixə,
Xudafərin üstündən izi gəldi tarixə;
Zaman-zaman kəsiklər özü güldü tarixə,
Ağoğlan-Şuşa yolu... aramızı qaytardıq.

Beləliklə, şeirin sonluğunda Ağoğlan-Şuşa yolu diqqətə çəkilir. Ağoğlan müəllifin doğulub-böyüdüyü Cəbrayılın qonşuluğundakı Hadrutun tarixi adıdır. Onu da qeyd edim ki, "Xəzanda yaz gülləri"ndə olduğu kimi, müəllifin digər əsərlərində də Ağoğlan obrazı tarixi yaddaş kimi keçir. Müəllif müxtəlif əsərlərində qeyd edir ki, Ağoğlan adlı tarixi abidələr Laçında, Cəbrayılda və Qarabağın digər yerlərində də var. Bu mifik obraz göstərir ki, həmin yerlər xalqımızın tarixi ilə bağlıdır. Bu mifik obrazların yarandığı zamanlarda ermənilərin - hayların tarix səhnəsinə heç izi-tozu da yox idi.

Zaman keçəcək, "Gülüstan"dan, "Türkmənçay"dan, Sovet işğalından başlanan hadisələrin Qarabağın işğaldan qurtarılması ilə bitən nikbin sonluğu təkcə tarix əsərlərindən deyil, həm də bədii ədəbiyyatdan öyrəniləcək. Bu mənada "Xəzanda yaz gülləri" poemasının da yeni nəsillərin yaddaşında mənəvi qaynaq olacağına şübhə etmirik.

Nahaq demirlər ki, ədəbiyyat tarixi tarixin özündən daha yaxşı öyrədir. Ona görə də bu tipli əsərlərin radio tamaşaları hazırlanmalı, maraqlı ədəbi-bədii verilişlərdə belə poema-etüdlərin mətnlərindən istifadə olunmalıdır. Çünki poetik ovqat insanların varlığına daha güclü sirayət edir. İnsanlar həqiqəti yarım həqiqətdən məhz bədii ovqatın təsiri ilə daha yaxşı ayıra bilirlər.

Düşünürəm ki, "Xəzanda yaz gülləri" poemasından bəzi parçalar dərsliklərə də daxil edilə bilər. Bədii oxu mətnləri kimi "Xəzanda yaz gülləri"nin özündə ehtiva olunan poema-etüdlərdən lövhələri gənclərə öyrətməklə onların ədəbi zövqünü də inkişaf etdirmək mümkündür.

"Xəzanda yaz gülləri" xatirə-poemasında yer almış "Unudulmaz ulular" poema etüdünün qəhrəmanlarının tarixləşmiş obrazlar kimi yaddaşımızda yaşamağa mənəvi haqları var.

*14.05.2024*